Ədəbiyyat qəzeti

30 oktyabr 2021-ci il 29



## Yəhya CANIYAR

Amansız ölüm qələm yoldaşımız Yəhya Canıyarı aramızdan apardı.

Yəhya Yusif oğlu Əliyev 1949-cu il dekabr ayının 5-də Qazaxısatan Respublikasının Cambul Vilayətinin Merke rayonunun Merke kəndində anadan olmuşdur. 1971-ci ildə Bakı Dövlət Unuversitetinin tarix, 1979-cu ildə Qazaxıstan Dövlət Universitetinin hüquq fakültələrini, 1989-cu ildə SSRİ DİN Akademiyasını bitirmişdir. Əmək fəaliyyətinə 1971-ci ildə Cambul Vilayəti Merke rayon İdman Komitəsinin sədri olaraq başlamışdır. 1972-1986-cı illərdə Cambul Vilayəti Daxili İşlər İdarəsində müvəkkil, şöbə rəisi, idarə rəisi, baş idarə rəisi, 1989-1990- illərdə Moskvada təhsil alıb qayıtdsıqdan sonra yenidən Cambul Vilayəti Baş Daxili İşlər İdarəsinin rəisi, 1990-1992-ci illərdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyində şöbə rəisi, 1992-1993-cü illərdə Cambul Vilayəti Baş Daxili İşlər İdarəsinin rəisi, 1993-1994-cü illərdə Azərbaycan Respublikası DİN-də baş idarə rəisinin müavini, 1995-1997-ci illərdə Xaçmaz Rayon Polis İdarəsinin rəisi, 1997-2000-ci illərdə Bakı Şəhəri Xətai Rayon Polis İdarəsinin rəisi, 2001-2002-ci illərdə Suraxanı Rayon Polis İdarəsinin rəisi, 2002-2005-ci illərdə Bakı Şəhər BPİ-də İstintaq İdarəsinin rəisi, 2005-2007-ci illərdə Azərbaycan Respublikası DİN Təhqiqat İdarəsinin rəisi, 2007-2009-cu illərdə Azərbaycan Respublikası DİN-nin Qazaxıstandakı Səlahiyyətli Nümayəndəliyinin rəhbəri vəzifələrində işləmişdir. İstefada olan polis polkovniki idi.

Ədəbi fəaliyyətə 1995-ci ildə başlamışdır. "Turan mübarizi", "Oyan Turan", həmçinin Qazaxıstanda rus dilində çapdan çıxmış dörd kitabın müəllifidir. Yaradıcılığının əsas mövzusu türkçülükdür. Eyni zamanda insanlığa qarşı yönəlmiş repressiyalar haqqında, tarixin qanlı səhifələrini işıqlandıran əsərləri var.

Yəhya Canıyar həm də fəal ictimaiyyətçi idi. Türk Xalqlarının Ümumdünya Konqresinin prezidenti, bir çox beynəlxalq qurumların üzvü idi. Dünyanın bir çox ölkəsində olmuş, tədbirlərdə iştirak etmişdir. Sovet dövründən başlayaraq çox sayda orden və medallarla, o cümlədən **"Azərbaycan bayrağı" ordeni ilə təltif olunmuşdur. "Əməkdar hüquqşünas" adına layiq görülmüşdür.**

İstedadlı yazıçı-publisist, səmimi, təvazökar insan Yəhya Canıyarın işıqlı xatirəsi qəlbimizdə yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**